**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SAHİBKARLIĞIN İNKİŞAFINA DAİR STRATEJİ YOL XƏRİTƏSİ ÇƏRÇİVƏSİNDƏ BİZNES MÜHİTİNİN YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

İxtisas: 5308.01 – “Ümumi iqtisadiyyat”

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Rəşad Əflatun oğlu Qarayev**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Gəncə Dövlət Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Tərbiz Nəsib oğlu Əliyev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Qabil Nadir oğlu Manafov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Tahir Şükür oğlu Şükürov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Ülvi Fərman oğlu Quliyev**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin ED 2.46 Birgə Dissertasiya Şurası.

Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ____________ iqtisad elmləri doktoru
**Elşən Əli oğlu İbrahimov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Qlobal problemlərin artdığı bir şəraitdə dünyada iqtisadi proseslərin və mövcud fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi, baş verən transformasiyalara uyğunlaşdırılması vacib şərtlərdəndir. Son 10-15 il ərzində dünya iqtisadiyyatı, əsas fəaliyyət istiqamətləri, xüsusilə biznes mühiti ciddi dəyişkiliklərə məruz qalmışdır. 2008-ci ilin sonlarından başlayan dünya maliyyə böhranı maliyyə resurslarının və investisiya axınlarının intensivliyini azaltmaqla, biznes mühitinə kifayət qədər mənfi təsir göstərmişdir. Maliyyə resurslarına çıxışın çətinləşdirilməsi, investisiyaların cəlb olunmasında məhdudiyyətlərin ortaya çıxması biznesin inkişafına müəyyən mənada problemlər yaratmışdır. Bu qlobal maliyyə böhranının mənfi fəsadları aradan qalxmamış, başqa bir qlobal problem – Covid-19 pandemiyası dünya iqtisadiyyatını və ilk növbədə biznes mühitini iflic vəziyyətinə salmışdır. 100 milyonlarla iş yerləri ixtisara düşmüş, məcburi məhdudiyyətlər tətbiq olunmuş, istehsalın və ixracın həcmi azalmış, xarici iqtisadi əlaqələr çətinləşmiş, biznesin inkişafı istiqamətində layihələr təxirə salınmış və ya tamamilə onlardan imtina olunmuşdur ki, bu da biznesin ağır itkilərlə üzləşməsinə səbəb olmuşdur. Bu baxımdan da, hazırda dünyada postpandemiya dövrünün postulatları, hədəfləri istiqamətində işlər daha çox aktuallığı ilə diqqət çəkir. Başqa sözlə, postpandemiya dövründə biznes mühitinin yaxşılaşdırılmasının yeni mərhələyə qaldırılması, son illərdə baş vermiş resessiyanın qarşısının alınması, müxtəlif istiqamətlər üzrə fəaliyyət strategiyalarının təkmilləşdirilməsi və ya yenilənməsi tələb olunur. Belə bir şəraitdə yaradılan biznes mühiti və onun adekvatlığı strateji əhəmiyyət kəsb edir. Belə ki, biznes mühitinin sahibkarlar və eyni zamanda, potensial investorlar üçün əlverişli olması olduqca vacibdir və bu halda daha yüksək nəticələrin əldə edilməsi mümkündür.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra, milli iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi, ölkəmizin resurs təminatından çıxış etməklə bu modelin bazar iqtisadiyyatı şərtləri əsasında inkişaf etdirilməsini strateji hədəf kimi qarşıya qoymuşdur. 1994-cü il sentyabr ayının 20-də imzalanmış "Əsrin kontraktı" çərçivəsində neft

strategiyasının reallaşdırılması və bunun nəticəsində iqtisadiyyatın bütün sahələrində məqsədli islahatların aparılması, bazar subyektlərinin inkişafı üçün zəruri şəraitin yaradılması, biznes mühitinin inkişafı üzrə milli mənafelərə cavab verən dövlət siyasətinin formalaşdırılması təmin olunmuşdur.

İdarəetmə sistemində müvafiq islahatlar, o cümlədən institusional və struktur islahatları aparılmış, biznes mühitinin yaxşılaşdırılmasını ləngidən maneələrin aradan qaldırılması tədbirləri görülmüşdür. Biznes subyektlərinə yersiz müdaxilələrin qarşısının alınması məqsədilə yoxlamaların sayı minimuma endirilmiş və əksər istiqamətlər üzrə isə bunlar dayandırılmışdır. Vergi və gömrük orqanlarının fəaliyyətində köklü dəyişkiliklər təmin edilmiş, məmur sahibkar münasibətləri yeni mərhələyə qaldırılmış, məmur sahibkar təmasları tam olaraq azaldılmış, dövlət orqanlarının göstərdikləri xidmətlərin şəffaflıq səviyyəsi yüksəldilmiş, əksəriyyəti elektronlaşdırılmış və bununla da sahibkarlığın inkişafının stimullaşdırılması mümkün olmuşdur. Biznes mühiti daha sərbəstləşmiş və manevr imkanları artmışdır, sahibkarların stimullaşdırılması üzrə dövlət dəstəyi mexanizmləri yenilənmiş və işlək xarakter almışdır.

Ulu Öndər Heydər Əliyev sahibkarlığın inkişafına və ölkədə biznes mühitinin yaxşılaşdırılmasına xüsusi önəm verirdi. Əsas yanaşma bazar iqtisadiyyatı şəraitində sağlam rəqabət mühitinin yaradılması və sahibkarlıq fəaliyyətinin səmərəli təşkil edilməsi ilə bağlı idi. Heydər Əliyev qeyd etmişdir ki: *“Azərbaycanda iqtisadiyyatın və sosial sahənin yüksəlişi özəl sektorun inkişafından asılıdır”*. Ulu öndər həm də belə hesab edirdi ki: *“Bazar iqtisadiyyatı rəqabətdir. Gərək hər gün düşünəsən ki, bazarı itirməyəsən”*[1]. Ötən dövr ərzində Ulu öndərin bu yanaşmaları və fikirləri tamamilə özünü təsbit etmişdir və ölkəmizdə sahibkarlığın inkişafı üzrə dövlət siyasətinin əsasında yer almışdır. Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı davamlı tədbirlərin görülməsinə və bununla bağlı dövlət siyasətinin təkmilləşdirilməsinə xüsusi önəm verir. Sahibkarların fəaliyyətinə

---

[1] http://anl.az/el/alf7/237474.pdf.

kənar müdaxilələr minimuma endirilmiş və ölkədə münbit biznes mühiti yaradılmışdır. İlham Əliyevə görə *"ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır"*[2]. Bu fikirlə həmrəy olmaqla bərabər, qeyd etmək istərdik ki, məhz hazırda dünyanın ən güclü iqtisadiyyata malik ölkələr səviyyəsidə çatmaqda sahibkarlığın inkişafı və biznes mühitinin cəlbediciliyinin təmin olunması əsas amillər kimi xarakterizə edilir.

Milli iqtisadiyyatın perspektiv sahələrinin inkişafında kiçik və orta biznes subyektlərinin rolunu artırmaq üçün ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə AR-də kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi təsdiq olunmuş və sonrakı illərdə bu strateji sənədin icrası nəticəsində həmin subyektlərin fəallığını artırmaq mümkün olmuşdur. Eyni zamanda, AR Prezidentinin 28 dekabr 2017-ci il tarixli fərmanı ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yaradılmışdır.

Ölkə prezidentinin 27 avqust 2017-ci il tarixli sərəncamı ilə "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya haqqında Əsasnamə" təsdiq olunmuş və biznes mühitinin yaxşılaşdırılması, tənzimləyici tədbirlərin görülməsi təmin edilmişdir. Biznes mühitinin yaxşılaşdırılması istiqamətində davamlı tədbirlərin görülməsini qeyd etmək olar. 2021-ci il ərzində beynəlxalq təşkilatlarla və beynəlxalq reytinqləri müəyyənləşdirən agentliklərlə sistemli işlər aparılmış, il ərzində 35 dövlət qurumunun birgə iştirakı təmin olunmaqla 585 tədbir həyata keçirilmiş, qanunvericilik bazasının və elektron xidmətlərin təkmilləşdirilməsi, biznes mühitinin yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər reallaşdırılmışdır. Nəticədə Azərbaycanın beynəlxalq səviyyədə rəqabət qabiliyyətliliyi artmış, ilk növbədə biznes mühitinin yaxşılaşdırılması istiqamətində beynəlxalq reytinqlərdə mövqeyi möhkəmlənmişdir. "İqtisadi Azadlıq İndeksi 2021" hesabatına görə 2020-ci illə müqayisədə 6 pillə irəliləyən Azərbaycan 178 ölkə arasında 38-ci pillədə yer almışdır.

2020-ci il sentyabr ayının 27-dən başlayan müharibədə Böyük Qarabağ Zəfərinin reallaşdırılmasından sonra ölkəmizdə bütün

---

[2] http://ask.org.az/wp-content/uploads/2018/06/biznes_heyati_20small.pdf.

istiqamətlərdə, o cümlədən regionlarda yeni reallıqlar yaranmış və biznes mühitinin yaxşılaşdırılması istiqamətində müasir çağırışlar ortaya çıxmışdır. Ölkə Prezidentinin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər qəbul olunmuş və bu prioritetlərin həyata keçirilməsində biznes subyektlərinin üzərinə ciddi vəzifələr düşür. Bu strateji sənəddə qeyd olunur ki, biznesin təşviqi mexanizmlərinin iqtisadi səmərəsi artırılmalı, xarici investorlara rəqabət mühitinin yaradılması ilə investisiyaların səmərəli tənzimlənməsi diqqət mərkəzində saxlanılmalı, şəffaflıq səviyyəsi yüksəldilməli və dövlət şirkətlərinin kommersiya prinsipləri əsasında fəaliyyət göstərmələri üçün zəmin yaradılmalıdır. Hesab edirik ki, həmin vəzifələrin həyata keçirilməsində biznes mühitinin yaxşılaşdırılması və investisiyaların cəlb edilməsinə imkan verən fəaliyyət məkanının yaradılması vacib şərtlərdəndir[3]. Qeyd edək ki, 2030-cu ilədək nəzərdə tutulan milli prioritetlərin reallaşdırılması üçün ölkə Prezidentinin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası" çərçivəsində geniş tədbirlər həyata keçirilməkdədir[4]. Məqsəd bu proseslərin intensivləşdirilməsi hesabına ölkədə sosial-iqtisadi inkişaf səviyyəsini yeni mərhələyə qaldırmaqdır. Bu proseslərdə sahibkarlığın roluna ciddi önəm verilmişdir və ölkədə biznes mühitinin cəlbediciliyinin artırılması istiqamətində səmərəli mexanizmlərin tətbiqi nəzərdə tutulmuşdur.

Bunlarla bərabər, AR Prezidentinin 2021-ci il 7 iyul tarixli fərmanı ilə ölkəmizdə iqtisadi rayonlaşma məsələləri təkmilləşdirilmiş və qürurverici haldır ki, işğaldan azad olunmuş ərazilərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır. Fikrimizcə, yaxın, orta və uzaq perspektivdə uzun illər ərzində bu strateji iqtisadi rayonlarda quruculuq, dirçəliş

---

[3]Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. / – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

[4]Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası. AR Prezidentinin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir.

layihələrinin həyata keçirilməsi, istehsal infrastrukrunun inkişaf etdirilməsi, "ağıllı" və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli müəssisələrin yaradılması, bu region üçün ənənəvi və yeni iqtisadiyyat sahələrinin daha sürətlə inkişaf etdirilməsi proseslərində əlverişli biznes mühitinin yaradılması həlledici rola malik olacaqdır.

Bütün bu qeyd olunanlar, ümumilikdə dissertasiya işinin mövzusunun aktuallığını göstərir və biznes mühitinin yaxşılaşdırılması istiqamətlərində fundamental araşdırmaların vacibliyinə dəlalət edir.

Dissertasiya işinin mövzusunun işlənmə dərəcəsi ilə bağlı qeyd etmək istərdik ki, starteji yol xəritəsinin hədəflərindən irəli gələn vəzifələr əsas götürülməklə biznes mühitinin yaxşılaşdırılması problemləri, bu sahədə fəaliyyətin səmərəliliyinin artırılması, yüksək texnologiyaların tətbiq olunması və problemlərin xüsusiyyətlərinin tədqiqi, nəzəri-metodoloji məsələlərinin baxılması və s. üzrə ölkəmizin, eyni zamanda, xarici ölkələrin tədqiqatçı-alimlərinin elmi əsərləri vardır və bunlar diqqət mərkəzində saxlanılmışdır.

Azərbaycanlı iqtisadçı-alimlərdən akademik Z.Ə.Səmədzadə, Ə.X.Nuriyev, A.F.Musayev, Ə.C.Muradov, E.A.Quliyev, B.X.Ataşov, N.M.İmanov, F.F.Mustafayev, İ.M.Abbasov, İ.H.Alıyev, T.H.Hüseynov, S.M.Qasımov, T.N.Əliyev, A.Ş.Şəkərəliyev, R.Ə.Balayev, M.M.Hüseynov X.M.Hüseynova, Ə.Q.Əlirzayev, İ.H.İbrahimov, R.T.Həsənov, A.B.Abbasov, E.Y.Məmmədov, R.Z.Hüseyn, A.D.Hüseynova, V.Ə.Qasımlı, A.M.Əsədov, E.Ə.İbrahimov və başqaları bu istiqamətlərdə mövcud yanaşmaların təkmilləşdirilməsi, biznes mühitinin yaxşılaşdırılması və biznes subyektlərinin səmərəlilik problemlərinin həlli istiqamətində tədqiqat əsərlərinin müəllifidirlər.

Klassik iqtisad məktəbinin görkəmli nümayəndələri də daxil olmaqla, xarici tədqiqatçı-alimlərinin elmi əsərlərində biznes proseslərinin tədqiqi və biznes mühitinin yaxşılaşdırılmasına mane olan problemlərin araşdırılması ilə bağlı tədqiqatlar yer almışdır. Bunlardan A.Smit, A.Marşall, D.Rikardo, C.S.Mill, J.B.Say, J.A.Şumpeter, P.A.Samuelson, V.D.Nordhaus, P.R.Kruqman, M.E.Porter, C.E.Stiqlits, F.N.Nayt, A.İ.Aqeyev, A.N.Asaul,

V.Y.Burov, Y.B.Baqiyev, O.A.Pisarenko və başqalarının elmi əsərlərində biznes mühitinin cəlbediciliyinin artırılması, biznes subyektləri və potensial investorlar üçün biznes mühitinin yaxşılaşdırılmasının nəzəri-metodoloji və praktiki məsələləri tədqiq edilmişdir.

Bunlarla yanaşı, qeyd edək ki, son onilliklərdə qlobal transformasiyaların təsiri altında və qlobal problemlərin artdığı bir şəraitdə biznes mühitinin maksimum yaxşılaşdırılması və yeni mexanizmlərin işlənilməsinə ehtiyac vardır. Belə ki, daha işlək mexanizmlər və çoxfunksiyalı, əlverişli biznes mühiti tələb olunur. Bu istiqamətlər üzrə fundamental araşdırmalara və məqsədli tədqiqatların aparılmasına zərurətin olduğunu qeyd etmək mümkündür.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması məqsədilə baş verən iqtisadi proseslər, bu proseslərin iştirakçıları olan biznes subyektləridir. Tədqiqatın predmeti isə biznes mühitinin yaxşılaşdırılması istiqamətləri, bununla bağlı fəaliyyət mexanizmlərinin tənzimlənməsi və təkmilləşdirilməsindən ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** . Tədqiqatın məqsədi müasir sosial-iqtsadi əsaslara söykənərək sahibkarlığın biznes mühitinin mövcud vəziyyətini öyrənmək, tədqiq etmək və yaxşılaşdırılması istiqamətlərini müəyyənləşdirməkdir. Bu məqsədlə dissertasiya işinin strukturuna uyğun olaraq növbəti vəzifələr qarşıya qoyulmuşdur:

- biznes mühitinin yaxşılaşdırılmasının nəzəri aspektlərinin tədqiqi və ümumiləşdirilməsi;
- müasir şəraitdə biznes mühitinin yaxşılaşdırılması problemlərinin həlli yollarına dair daha səmərəli metodoloji yanaşmaların müəyyənləşdirilməsi;
- qlobal kontekstdən çıxış etməklə, biznes mühitinin yaxşılaşdırılmasına dair dünya təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi;
- müasir çağırışlar şəraitində Azərbaycanda biznes mühitinin təhlil olunması və qiymətləndirilməsinin aparılması;
- Azərbaycanda biznes mühitinin stimullaşdırılması istiqamətində dövlət dəstəyi tədbirlərinin tədqiqi və onların səmərəliliyinin qiymətləndirilməsi;

- biznes mühitinin yaxşılaşdırılması üzrə qanunvericilik bazasının təkmilləşdirilməsinə baxılması;
- yeni texnologiyaların tətbiqinin genişləndiyi bir dövrdə biznes mühitinin yaxşılaşdırılmasından ötrü innovasiya infrastrukturunun genişləndirilməsi imkanlarının araşdırılması;
- Azərbaycanda yeni reallıqlar şəraitində, strateji yol xəritəsində nəzərdə tutulan biznes mühitinin sağlamlaşdırılması perspektivlərinin araşdırılması və yollarının müəyyənləşdirilməsi.

**Tədqiqat metodları.** Tədqiqat zamanı iqtisad elmində geniş yayılan bir sıra iqtisadi metodlardan - təhlil, sintez, müqayisə, ümumiləşdirmə, həmçinin kompleks və sistemli yanaşmadan istifadə olunmuşdur. Nəzəri yanaşmaların öyrənilməsində və metodoloji xüsusiyyətlərin müəyyənləşdirilməsində, onların ümumiləşdirilməsində, eyni zamanda müasir dövr üçün səmərəli ola biləcək metod və üsulların tətbiq olunmasında Azərbaycan və xarici ölkə tədqiqatçılarının biznes mühitinin yaxşılaşdırılmasının rolu və əhəmiyyəti, prioritetləri üzrə elmi əsərlərindən, dövlətin bu sahədə siyasətinin əsas istiqamətlərindən, mövcud normativ-hüquqi sənədlərdən, eyni zamanda ölkə Prezidentinin fərman və sərəncamlarından, AR Nazirlər Kabinetinin qərarlarından, elmi-tədqiqat institutlarının və mərkəzlərinin metodoloji materiallarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar** bunlardır:

- qlobal transformasiyalardan irəli gələrək biznes mühitinin yaxşılaşdırılmasına nəzəri yanaşmaların yeni tələblərə uyğun olaraq baxılması və ümumiləşdirilməsi zərurəti yaranmışdır;
- hazırkı dövrdə biznes mühitinin yaxşılaşdırılmasına dair daha üstün metodoloji üslubların müəyyənləşdirilməsinə ehtiyac vardır;
- müsbət təcrübəyə malik ölkələrin biznes mühitinin yaxşılaşdırılması problemlərinin həlli üzrə təcrübəsinin daha dərindən öyrənilməsi və mənimsənilməsi vacibdir;
- Azərbaycanda biznes mühitinin stimullaşdırılması və investisiya mühitinin cəlbediciliyinin artırılması, daha səmərəli

biznes proseslərinin təşkili modellərinə və mexanizmlərinə zərurət yaranmışdır;

- Azərbaycanda biznes subyektlərinin maliyyə resurslarına çıxışının asanlaşdırılması və bunlarla bağlı olaraq bines mühitinin yaxşılaşdırılması üzrə dövlət dəstəyi mexanizmlərinin qiymətləndirilməsi faydalı olardı;
- yeni reallıqlar nəzərə alınmaqla, biznes mühitinin mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi və yeni qanunların qəbul edilməsi zərurəti qalmaqdadır;
- postpandemiya dövründə və işğaldan azad olunmuş ərazilərimizin dirçəldilməsi proseslərində maksimum səmərəli biznes mühitinin formlaşadırılmasına ehtiyac yaranmışdır;
- müasir çağırışlar kontekstində və Strateji Yol Xəritəsində nəzərdə tutulan biznes mühitinin innovativ yanaşmalar hesabına yaxşılaşdırılması və sağlamlaşdırılmasının daha perspektivli fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi tələb olunur.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- qlobal transformasiyalar və yeni çağırışlar kontekstində biznes mühitinin yaxşılaşdırılması, daha səmərəli fəaliyyət mexanizmlərinin işlənməsi və tətbiqi, biznes mühitinin cəlbediciliyinin yüksəldilməsi problemləri üzrə konseptual müasir elmi-nəzəri baxışlar formalaşdırılmış, yanaşmalar və prinsiplər müəyyənləşdirilmişdir;
- müasir tələblərdən yanaşmaqla biznes mühitinin mövcud mexanizmlərinin təkmilləşdirilməsi və modelləşdirilməsi, bu istiqamətdə daha üstün və səmərəli elementlərindən istifadə olunması məqsədilə metodoloji xüsusiyyətlər tədqiq olunaraq müəyyənləşdirilmiş, biznes mühitinin əsas elementlərindən biri olan sahibkarlığın xüsusiyyətləri, iqtisadiyyatın şaxələndirilməsində reallaşdırdığı funksiyaları, sosial-iqtisadi əhəmiyyəti nəzərə alınmaqla, sahibkarlıq fəaliyyətinin tərifi müəllif tərəfindən verilmiş və əsaslandırılmışdır;
- Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması və stimullaşdırılması problemləri tədqiq olunmuş və bu sahədə dövlət dəstəyi alətlərinin, tənzimləyici tədbirlərin səmərəliyinin

artırılması məqsədilə idarəetmə elementləri və dəstək proqramlarının maliyyə təminatı da daxil olmaqla qiymətləndirmə mexanizmi hazırlanmışdır;

– müasir dövrdə Azərbaycanda sahibkarlığın inkişaf xüsusiyyətləri, iqtisadiyyatın müxtəlif sahələrində geniş yayılan funksiyaları ilə dövlət dəstəyinin səmərəliliyi meyarlarının təsnifatı hazırlanmış, biznes mühitinin yaxşılaşdırılmasına dövlət dəstəyi mexanizmlərinin kəmiyyət və keyfiyyət göstəricilərindən, xüsusiyyətlərindən yanaşmaqla, səmərəlilik meyarları sistemləşdirilmiş, qiymətləndirmə metodu, iqtisadi, büdcə və sosial səmərəlilik meyarlarının əsas elementləri və komponentləri araşdırılmışdır;
– biznes mühitinin yaxşılaşdırılması problemlərinin həllində tənzimləyici tədbirlərin görülməsinin və qanunvericilik bazasının təkmilləşdirilməsinin vacibliyi əsaslandırılmış, biznes mühitinin yaxşılaşdırılması üçün innovasiya infrastrukturlarının fəaliyyətindən əldə edilə biləcək müsbət təsirlər aşkarlanmış və hazırkı şəraitdə tələb olunan yüksək texnologiyalar və əsaslı innovasiya strukturları üç əsas qrupda cəmləşdirilmişdir;
– Azərbaycanda biznes mühitinin cəlbediciliyinin yüksəldilməsi məqsədilə “Azərbaycan Respublikası üzrə biznes subyektlərinin rəqəmsal portalı”nın yaradılması təklif edilmişdir;
– sahibkarlığın inkişafının intensivləirilməsi və səmərəliliyinin artırılması məqsədilə, biznes mühitinin cəlbediciliyinin yaxşılaşdırılması üçün “Kiçik, Orta Biznes Müəssisələrinin Klaster Şirkəti” – “KOBM Klaster Şirkəti”nin yaradılmasının vacibliyi tövsiyə edilmişdir;
– Azərbaycanda yeni reallıqlar – postpandemiya postulatları və işğaldan azad olunmuş ərazilərdə biznes subyektlərinin səmərəli fəaliyyət göstərməsi və strateji yol xəritəsində icrası davam edən, yeni qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrə adekvat olan, eyni zamanda 2030-cu ilədək müəyyənləşdirilən Milli Prioritetlərdə xüsusi əhəmiyyət kəsb

edən biznes mühitinin yaxşılaşdırılması istiqamətlərinin blok-sxemi hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində alınmış elmi nəticələrdən, verilmiş təkliflərdən biznes mühitinin yaxşılaşdırılması tədbirlərinin təşkilində, biznes mühitinin cəlbediciliyinin artırılması üzrə konseptual yanaşmaların formalaşdırılmasında, dövlət tərəfindən biznes mühitinin təkmilləşdirilməsində və inkişaf etdirilməsində, məqsədli proqramların və strategiyaların hazırlanmasında istifadə etmək mümkündür. Bunlarla bərabər, dissertasiya işində yer almış elmi-nəzəri müddəalardan dərsliklərin və dərs vəsaitlərinin yazılmasında, mühazirələrin hazırlanmasında istifadə etmək olar.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu Gəncə Dövlət Universitetində elmi-tədqiqat işlərinin ümumi istiqamətinə uyğun gəlməklə, müasir dövrdə aktual məsələ olaraq daimi fəaliyyət göstərən elmi seminarlarda müzakirə edilmiş və təqdir ounmuşdur.

Dissertasiya işinin mövzusu üzrə iddiaçının 11 elmi əsəri, o cümlədən, 8 məqalə və 3 tezisi, onlardan 1 məqalə və 2 tezisi xaricdə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda dərc edilmişdir. Mövzu üzrə müəllifin "Regionlarda sahibkalığın inkişafının müasir meylləri və perspektivləri" (Sumqayıt, 2021-ci il), "Усиление инновационной структуры предпринимательства в улучшении бизнес-среды в рамках стратегической дорожной карты" (Москва, 2022) və "Усиление развития бизнес-среды в контексте повышения эффективности предпринимательства в современных условиях" (Москва, 2022) adlı tezisləri dərc olunmuşdur.

Bundan əlavə, iddiaçının "Sahibkarlığın inkişafı üzrə strateji yol xəritəsi çərçivəsində biznes mühitinin yaxşılaşdırılması perspektivləri" (Bakı, 2019), "Qlobal iqtisadi çağırışlar şəraitində biznes mühitinin yaxşılaşdırılmasının aktual problemləri və istiqamətləri" (Bakı, 2019), "Kiçik və orta sahibkarlığın inkişafında biznes mühitinin yaxşılaşdırılmasının strateji əhəmiyyəti" (Bakı, 2019), "Sahibkarlığın inkişafı istiqamətində biznes mühitinin yaxşılaşdırılması problemlərinə yanaşmaların strateji aspektləri" (Bakı, 2019), "Sahibkarlığın inkişafında biznes mühitinin

yaxşılaşdırılmasının nəzəri-metodoloji məsələləri" (Bakı, 2020), "Azərbaycanda sahibkarlığın inkişafında biznesin stimullaşdırılmasında dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin qiymətləndirilməsi" (Bakı, 2020), "Strateji yol xəritəsinə uyğun sahibkarlığın inkişafı proseslərində biznes mühitinin rəqəmsallaşdırılması istiqamətləri" (Bakı, 2021), "Проблемы и перспективы улучшения бизнес-среды в развитии предпринимательства в контексте стратегической дорожной карты" (Москва, 2022) adlı məqalələri dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Gəncə Dövlət Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Giriş (19274 işarə), I fəsil (87526 işarə), II fəsil (46777 işarə), III fəsil (73649 işarə), nəticə (11915 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (25203 işarə) üzrə ümumi həcm 279618 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər və istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla 239141 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş**ində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi və s. verilmişdir.

Dissertasiyanın "**Biznes mühitinin yaxşılaşdırılmasının nəzəri-metodoloji əsasları"** adlı **birinci fəsli**ndə biznes mühitinin yaxşılaşdırılmasının nəzəri əsasları, biznes mühitinin yaxşılaşdırılması problemlərinə metodoloji yanaşmaların xüsusiyyətləri və biznes mühitinin yaxşılaşdırılması üzrə dünya təcrübəsi araşdırılmışdır.

Müasir iqtisadi münasibətlərin qloballaşması şəraitində biznes mühitinin yaxşılaşdırılmasının nəzəri-metodoloji əsaslarının öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu, ilk növbədə, biznes mühitinin əsas elementlərindən biri olan sahibkarlığın xüsusi bir istehsal amili kimi əhəmiyyəti ilə izah olunur. İkincisi, sahibkarlıq

fəaliyyəti ilə bağlı problemlərin araşdırılmasına marağın artması məhdud mənbələrin bölüşdürülməsində iştirak edən iki tərəf - sahibkar və dövlət arasında yeni əlaqələrin qurulması ilə əlaqədardır. Və nəhayət üçüncüsü, iqtisadi, elmi, texniki, istehsal, maliyyə, institusional, sosial və digər sahələrin inkişafındakı geriləmənin aradan qaldırılması zərurəti ilə əlaqədar olaraq sahibkarlıq fenomeni haqqında biliklərin dərinləşdirilməsi tələb olunur.

Bazar iqtisadiyyatı subyektlərinin rəqabətli qarşılıqlı əlaqəsi prosesində biznes subyektləri özləri üçün ən yaxşı iş şəraiti yaratmağa, rəqabət üstünlükləri qazanmağa çalışırlar. Bu mənada bizə görə biznesin idarəetmə metodu kimi əsas xüsusiyyətlərini aşağıdakı kimi vurğulamaq olar: 1) Biznes subyektlərinin iqtisadi azadlığı; 2) Qəbul edilmiş qərarlar, nəticələr və əlaqəli risk üçün iqtisadi məsuliyyət; 3) Kommersiya müvəffəqiyyətini əldə etməyə, qazancı artırmağa çalışmaq. Bu, biznes subyektlərinin təbiətindən irəli gələn əsas məqsəddir və 4) İnnovasiya, yaradıcı axtarış, qeyd edək ki, bu xüsusiyyət daha vacibdir.

Biznes mühitinin cəlbedici olması sahibkarlar üçün əlavə üstünlük formalaşdırır. İngilis iqtisadçısı R.Kantilyona görə, *"Bütün sahibkarlar kapital qoyaraq öz işlərinə başlaya biləcək sahibkarlara və fəaliyyətləri üçün kapitala ehtiyac duymayan sahibkarlara, yəni öz əməyi olan sahibkarlara bölünür"*[5]. D.Rikardo isə biznesin sosial məsuliyyəti problemini zamanından xeyli qabaq formalaşdıran ilk şəxs idi. Onun fikrincə: *"Sahibkarlıq fəaliyyəti yalnız mənfəətin artırılması ilə idarə olunmamalıdır"*[6]. J.Şumpeterə görə, biznes mühitinin əsas subyekti olan sahibkar - yeni məhsullar inkişaf etdirmə qabiliyyətinə sahib olan və qeyri-müəyyənlik şəraitində fəaliyyət göstərən bir şəxsdir. O, hesab edirdi ki: "*Biznes mühitinin iqtisadiyyatda və bütövlükdə cəmiyyətdə oynadığı misilsiz rol iqtisadi qeyri-müəyyənlik şəraitində fəaliyyət göstərmək istəkləridir*"[7].

---

[5]Кантильон, Р. Эссе о природе торговли в общем плане // Мировая экономическая мысль. Сквозь призму веков. -Москва: Мысль, 2004. – s.273.

[6] Ricardo, D. On the Principles of Political Economy and Taxation, 1817. Batoche Books, Kitchener, Ontario. –2001, – s. 214.

[7] Schumpeter, J.A. History of Economic Analysis Oxford University Press, – 1954. – s. 418.

Professorlar İ.M.Abbasov və T.N.Əliyev biznes mühitinin əsas elementi olan sahibkarlıq fəaliyyət elementlərinə xüsusi diqqət yetirmişlər və onun əsas vəzifəsinin məhsul istehsal etmək və xidmət göstərməsi olduqlarını bildirmişlər[8]. Biz də hesab edirik ki, biznes mühitinin yaxşılaşdırılması problemləri bir qrup amillərə və məsələlərə sistemli, həmçinin kompleks yanaşmanı şərtləndirir.

Sxem 1-də müasir dövrdə biznes mühitinin yaxşılaşdırılması ilə bağlı bir sıra yanaşmalar və prinsipləri sxemləşdirmişik.




**Sxem 1. Müasir dövrdə biznes mühitinin yaxşılaşdırılması ilə bağlı yanaşmalar və prinsiplər**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır*

---

[8] Abbasov, İ.M., Əliyev T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. – Bakı: “Elm və Təhsil”, – 2017, – s. 364.

Sxem 1-dən göründüyü kimi, müasir dövrdə biznes mühitinin yaxşılaşdırılması və bununla bağlı amillərin sistemli şəkildə öyrənilməsi, problemlərinin üzə çıxarılması və müəyyənləşdirilməsi vacib şərtlərdəndir.

Sxem 2-də isə biznes mühitinin yaxşılaşdırılması probelmlərinin həlli üzrə metodoloji yanaşmalar və onların xüsusiyyətləri verilmişdir.




**Sxem 2. Biznes mühitinin yaxşılaşdırılması probelmlərinin həlli üzrə metodoloji yanaşmalar və onların xüsusiyyətləri**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Ölkə iqtisadiyyatının bütün sahələrində işgüzar münasibətlərin dərinləşdirilməsi, biznes mühitinin cəlbediciliyinin təmin olunması tədbirləri sistemli və ardıcıl xarakter daşımalıdır. O cümlədən, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi hesabına ölkə regionlarında regional innovativ inkişafın sürətləndirilməsi və biznes mühitinin yaxşılaşdırılması təmin olunmalıdır.

Biznes mühitinin dəstəklənməsi sahəsində təsirli və səmərəli dəstək böyük resurs imkanlarına və geniş səlahiyyətlərə malik olan ixtisaslaşmış dövlət qurumları vasitəsi ilə həyata keçirilir. Dünya ölkələrində sahibkarlıq subyektlərinə dövlət dəstəyi tədbirlərinə yeni başlayan sahibkarlar üçün zəmanət və kreditlər, əmtəə kreditləri, vençur maliyyələşdirməsi, konsaltinq xidmətləri, vergi güzəştləri və s. daxildir. Hesab edirik ki, dövlət dəstəyi sahibkarlıq strukturlarının yaradılması və saxlanmasında əsas amillərdəndir. Dünyanın müxtəlif ölkələrində davamlı və fəal şəkildə istifadə edilən dövlət dəstəyi mexanizmlərinin bir qrupu sxem 3-də verilmişdir.




**Sxem 3. Dünyanın müxtəlif ölkələrində biznes mühitində davamlı və fəal şəkildə istifadə edilən dövlət dəstəyi mexanizmləri**

*Mənbə: tədqiqat materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Sxem 3-dən çıxış etsək, qeyd etmək mümkündür ki, biznes mühitində müxtəlif dövlət dəstəyi mexanizmləri yenilənə bilər və lazım gəldikdə dövrün tələblərinə uyğun daha təsirli dövlət dəstəyi mexanizmlərinin işlənilməsi və tətbiq olunması imkanları istisna edilmir.

İşin **“Azərbaycanda biznes mühitinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi”** adlı **ikinci fəslində** ölkədə biznes fəaliyyətinin inkişaf prosesləri və təşkilinin müasir vəziyyətinin təhlili, ölkədə biznes mühitinin formalaşmasının mövcud vəziyyəti, biznes mühitinin stimullaşdırılması və dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin qiymətləndirilməsi verilmişdir.

Son 15-20 il ərzində ölkə iqtisadiyyatının inkişafının müasir dövrün tələblərinə uyğunlaşdırılması, iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi, iqtisadi proseslərin sürətləndirilməsi və iqtisadi artımın təmin olunması istiqamətində xeyli işlər görülmüşdür. Bunlar öz əksini bir qrup makroiqtisadi göstəricilərdə, həmçinin sahibkarlıq fəaliyyəti ilə bağlı statistik məlumatlarda tapmışdır (bax: cədvəl 1).

Cədvəl 1-dən göründüyü kimi ÜDM-də qeyri-dövlət sektorunun payı 2010-cu ildə 81,7 % olmuşdursa, bu göstərici 2015-ci ildə 81,2 % və 2017-ci ildə isə 83,7 %, 2019-cu ildə 85 %, 2021-ci ildə bir qədər düşərək 83,5 %, 2022 ildə isə yenidən artım tempi bərpa olunaraq 86,5% təşkil etmişdir. Maraqlıdır ki, hazırda kənd təsərrüfatı sahəsində qeyri-dövlət sektorunun payı 100 %-ə yaxındır. İlbəil isə iqtisadiyyatın “dövlətsizləşdirilməsi” və neftdən asılılığın azaldılması istiqamətində sahibkarlığın rolunun yüksəlməsi diqqət çəkir.

Ölkəmizdə son illərdə mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən yaradılan əlavə dəyər artım tempi nümayiş etdirməkdədir və bu da ümumilikdə milli iqtisadiyyatın strukturunda qeyri-neft sektorunun artımında önəmli rol oynayır.

Diaqram 1-də Azərbaycanda 2019-2021-ci illər üzrə mikro, kiçik və orta sahibkarlıq subyektləri üzrə əsas kapitala investisiyaların strukturu təhlil olunmuşdur. Göründüyü kimi, 2019-cu ildə əsas kapitala yönəldilən investisiyaların həcmi 3,4 milyard manat səviyyəsində olmuşdur. 2020-ci ildə bu rəqəm 27,3 % azalaraq 2,67 milyard manat səviyyəsinə düşmüşdür. 2021-ci ildə isə 26,7 % artım olmuş və 3,39 milyard manat təşkil etmişdir.

**Cədvəl 1**

**Azərbaycanın Ümumi Daxil Məhsulunda qeyri-dövlət bölməsinin payı, %-lə**

| Göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2010-2022-ci illərdə: +/ – |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **ÜDM-də payı** | **81,7** | **82,5** | **81,5** | **82,5** | **81,9** | **81,2** | **83,7** | **83,8** | **84,7** | **85,0** | **80,8** | **83,5** | **86,5** | **+4,8** |
| Sənaye | 87,4 | 88,1 | 87,3 | 87,4 | 86,1 | 83,0 | 87,6 | 87,9 | 89,6 | 89,3 | 85,6 | 88,8 | 92,8 | +5,4 |
| Tikinti | 72,0 | 75,3 | 76,0 | 84,5 | 84,3 | 84,5 | 86,8 | 84,6 | 80,2 | 82,9 | 84,6 | 87,5 | 87,5 | +15,5 |
| Kənd təsərrüfatı | 99,7 | 99,3 | 99,4 | 99,4 | 99,8 | 99,8 | 99,9 | 99,9 | 99,9 | 99,9 | 99,9 | 99,9 | 99,9 | +0,2 |
| Ticarət və xidmətlər | 99,2 | 99,7 | 99,7 | 99,8 | 99,8 | 99,6 | 99,6 | 99,7 | 99,8 | 99,7 | 99,9 | 99,7 | 99,7 | +0,5 |
| Nəqliyyat | 75,3 | 78,1 | 77,7 | 77,1 | 78,5 | 81,7 | 82,8 | 82,4 | 83,1 | 83,6 | 80,1 | 84,8 | 85,1 | +9,8 |
| Rabitə | 78,6 | 76,3 | 76,6 | 76,8 | 80,0 | 81,0 | 80,5 | 81,2 | 82,0 | 82,4 | 80,8 | 81,5 | 81,5 | +2,9 |
| Sosial və sair xidmətlər | 47,0 | 49,4 | 49,1 | 51,5 | 55,2 | 57,8 | 58,0 | 56,1 | 56,4 | 58,2 | 51,0 | 52,5 | 52,5 | +5,5 |

Mənbə: Azərbaycanın Milli Hesabları. – https://www.stat.gov.az/source/system_nat_accounts/




**Diaqram 1. Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq subyektləri üzrə əsas kapitala investisiyaların həcmi, milyon manat, 2019-2021-ci illər**

*Mənbə: ARDSK-nın məlumatları əsasında hazırlanmışdır - https://www.stat.gov.az/source/entrepreneurship).*

Diaqram 2-də 2016-2021-ci illər üzrə Azərbaycan iqtisadiyyatında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı müqayisəli şəkildə təhlil olunmuşdur.




**Diaqram 2. Azərbaycan iqtisadiyyatında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əlavə dəyərdə payı, faizlə, 2016-2021-ci illər**

*Mənbə: ARDSK-nın məlumatları əsasında hazırlanmışdır - https://www.stat.gov.az/source/entrepreneurship).*

Diaqram 2-in təhlilindən baxsaq, görmək mümkündür ki, 2016-cı ildə kiçik və orta sahibkarlıq subyektlərinin payı əlavə dəyərdə cəmisi 6,4 %-i olmuşdursa, bu göstərici 2021-ci ildə 2,7 dəfəyə yaxın artaraq 16,4 % təşkil etmişdir.

Diaqram 3-də isə 2016-2021-ci illərdə Azərbaycanda fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı verilmişdir.




**Diaqram 3. Azərbaycanda fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ümumi sayının müqayisəsi; 2016, 2019 və 2021-ci illər**

*Mənbə: ARDSK-nın məlumatları əsasında hazırlanmışdır - https://www.stat.gov.az/source/entrepreneurship).*

Diaqram 3-ün təhlilindən baxsaq, biznes mühitinin yaxşılaşdırılması hesabına sahibkarlıq subyektlərinin sayı 2016-2021-ci illər ərzində 85,7 % artaraq, 2021-ci ildə 355,9 min vahid təşkil etmişdir. Həmin dövr ərzində, xüsusilə son illərdə mikro sahibkarlıq subyektlərinin yaradılmasına maraq kifayət qədər artmışdır. Belə ki, 2021-ci il ərzində ölkədə fəaliyyət göstərən bu qəbildən olan sahibkarlıq subyektlərinin ümumi sayında mikro sahibkarlıq subyektlərinin payı 97,3 %-ə yaxın olmuşdur və yaxud 346,2 min sahibkarlıq subyekti mikro sahibkarlıq statusunda fəaliyyət göstərmişlər.

Cədvəl 2-də Sumqayıt Texnologiyalar Parkının 2014-2022-ci illər ərzində bir qrup göstəriciləri təhlil olunmuşdur.

**Cədvəl 2**

**Sumqayıt Texnologiyalar Parkının bir qrup əsas göstəriciləri (2014-2022-ci illər)**

| İllər | Yatırılan investisiyalar, mln. man. | Məhsul istehsalının dəyəri, mln. man. | Əsas fondların dəyəri, mln.man. | Gəlir, mln. man. |
|---|---|---|---|---|
| 2014 | 251,0 | 44,8 | 221,6 | 150,5 |
| 2015 | 799,0 | 51,9 | 195,0 | 101,4 |
| 2016 | 814,3 | 58,8 | 184,7 | 94,5 |
| 2017 | 1 045,5 | 80,0 | 172,5 | 82,3 |
| 2018 | 1 048,6 | 79,5 | 157,4 | 197,3 |
| 2019 | 1 049,6 | 90,9 | 194,3 | 97,7 |
| 2020 | 1 052,0 | 50,7 | 193,7 | 69,1 |
| 2022 | 1 052,0 | 142,7 | 175,8 | 68,7 |

*Mənbə: STP-nin məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 2-dən çıxış etsək, görürük ki, Sumqayıt Texnologiyalar Parkının 2014-2022-ci illərdə yatırılan investisiyaların hesabına məhsul istehsalının dəyəri 3,2 dəfəyə yaxın artırmışdır. Bu onu göstərir ki, ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması potensialı yüksəkdir.

Cədvəl 3-də son onilliklərdə Azərbaycanda biznes mühitində əsasən öz yerini tutmuş və inkişaf etmiş biznes strukturlarının – şirkətlərin bir qrupu haqqında məlumatları əks etdirmişik.

Biznes mühitinin yaxşılaşdırılması daim dəyişən fərdiləşdirilmiş istehlakçı tələbinə sürətli uyğunlaşması ilə fəaliyyət xeyli dərəcədə asanlaşdırılır. Bunun üçün həm məhsul və xidmətlər istehsalı, həm də idarəetmə texnologiyası sahəsində yeni biliklərə əsaslanan innovasiyaları fəal şəkildə inkişaf etdirmək və tətbiq etmək lazımdır. Nəticə etibarilə, elmi-texniki baza, sahibkarlığın inkişafı üçün əsas hərəkətverici qüvvədir və elmi-texniki və texnoloji iş mühitinin yaxşılaşdırılması bölgədə əlverişli biznes mühitinin formalaşmasında

ən aktual məsələlərdən birinə çevrilir[9]. Biznes mühitinin yaxşılaşdırılması daxili və xarici mühitin amillərindən asılıdır. Daxili mühitin amillərinə, ilk növbədə, kadrların müvafiq kəmiyyət və keyfiyyət səviyyəsi, onların peşəkarlığı və iş strukturunun təşkilati mədəniyyəti daxildir[10].

**Cədvəl 3**

**Azərbaycanda biznes mühitində inkişaf etmiş bir qrup şirkətlər və onların fəaliyyətinin qısa məzmunu**

| S/S | Şirkətlər | Şirkətlər haqqında məlumat və onların fəaliyyətinin qısa məzmunu |
|---|---|---|
| 01 | Azərsun Holdinq MMC | – Şirkət Azərbaycanda kifayət qədər təşkilatlanmış və inkişaf etmiş struktura malik biznes qurumudur. Aktivlərinin həcmi 1163,4 milyon manat həcmindədir. Şirkət 2022-ci ildə 465,1 milyon manat həcmində məcmu mənfəətə sahib olmuşdur, il üzrə xalis mənfəət isə 15,2 milyon manat təşkil etmişdir. Şirkət əsasən qida məhsullarının istehsalı və satışı istiqamətində ixtisaslaşmışdır, o cümlədən ixrac potensialını da artırmaqdadır. |
| 02 | "Holcim (Azərbaycan)" ASC | – Şirkət Azərbaycanda hələ sovetlər birliyi dövründə fəaliyyət göstərmişdir. 1990-cı illərin əvvəllərində Qaradağ sement zavodu özəlləşdirilmiş və yüksək texnologiyaların, həmçinin qabaqcıl idarəetmə metodlarının tətbiqi nəticəsində istehsalın həcmi əhəmiyyətli səviyyədə artırılmışdır. Burada əsasən sement, hazır beton qarışığı istehsal olunur. 2022-ci ildə ümumi mənfəət 68,8 milyon manata yaxın olmuşdur. Xalis mənfəət isə 6,6 milyon manat təşkil etmişdir. Şirkətin aktivlərinin ümumi həcmi 280 milyon manatdır. |
| 03 | "Azertexnolayn" MMC | – 2012-ci ildə Sumqayıt Kimya Sənaye Parkının ilk rezidenti kimi fəaliyyətə başlamışdır. Yüksək texnologiyalar əsasında ixracyönlü məhsullar, o cümlədən müxtəlif ölçülü polad və polietilen borular, metal hasarlar, siyirmələr və s. istehsal olunur. |

*Mənbə: https://api.azersun.com/files/page/etdmrlye.k2p.pdf ; https://www.holcim.az/az;https://www.azertexnolayn.com/site/assets/files/1051/atl_az_dili.pdf - əsasında müəllif tərəfindən hazırlanmışdır.*

---

[9]Коробкова, Н.А., Парамонова, Л.С. Совершенствование институтов взаимодействия власти и бизнеса в контексте регионального развития // Интернет-журнал «Науковедение» – 2013. Выпуск 6 – s. 9.

[10]Муравьёва, А.А., Пожидаев, Р.Г. Совершенствование бизнес-процессов: задачи будущих исследований // Вестник ВГУ. – 2013. № 2, – s. 141.

Sxem 4-də biznes mühitinin stimullaşdırılmasında dövlət dəstəyi alətlərinin və tənzimləyici tədbirlərin səmərəliliyinin qiymətləndirilməsi mexanizmi təklif edilmişdir.




**Sxem 4. Biznes mühitinin stimullaşdırılmasında dövlət dəstəyi alətlərinin və tənzimləyici tədbirlərin səmərəliliyinin qiymətləndirilməsi mexanizmi**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır*

Cədvəl 4-də isə sahibkarlığa dövlət dəstəyinin səmərəlilik meyarlarının kəmiyyət və keyfiyyət qiymətləndirilməsi verilmişdir.

**Cədvəl 4**

**Sahibkarlığa dövlət dəstəyinin səmərəliliyi meyarlarının sistemləşdirilməsi**

| Qiymətləndirmə metodu | İqtisadi səmərəlilik | Büdcə səmərəliliyi | Sosial səmərəlilik |
|---|---|---|---|
| Kəmiyyət qiymətləndirilməsi | 1. Mikro, kiçik və orta müəssisələrin dövriyyəsi<br>2. Mikro, kiçik və orta müəssisələrin sayı<br>3. Dövlət dəstəyi ilə əhatə olunan mikro, kiçik və orta müəssisələrin sayı<br>4. Maliyyə-iqtisadi göstəricilərini yaxşılaşdıran müəssisələrin sayı<br>5. Mikro, kiçik və orta müəssisələrin məhsul, iş və xidmətlərinin həcmləri<br>6. Sahibkarlığın ÜDM-də payı<br>7. Sahibkarlıqda səmərəlilik və məhsuldarlıq<br>8. Əsas fondlara investisiya cəlb edilməsi<br>9. Sahibkarlığı dəstəkləmək üçün infrastruktur obyektlərinin yaradılması | 1. Vergi gəlirlərinin həcmi<br>2. İxracatdan daxilolmaların həcmi<br>3. Vergi bazasında artım | 1. Yaradılan iş yerlərinin sayı.<br>2. Mikro, kiçik və orta müəssisələrdə işləyənlərin sayı<br>3. Mikro, kiçik və orta müəssisələrdə orta aylıq əmək haqqı |
| Keyfiyyət qiymətləndirilməsi | 1. Rəqabət mühitinin qorunması<br>2. Sahibkarlığın inkişafı və dəstəklənməsi üçün büdcədənkənar maliyyə mənbələrinin və əlavə vəsaitlərin cəlb edilməsi səviyyəsi | 1. Sahibkarlığı dəstəkləmək üçün büdcədən geri ödənilə bilən əsaslarla ayrılan vəsaitin bərpa edilməsi<br>2. Mikro, kiçik və orta müəssisələrdən vergi yığımının artırılması | 1. Sosial gərginlik<br>2. Mikro, kiçik və orta müəssisələrin sosial gəlirliliyi<br>3. Əhalinin rifah səviyyəsi |

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Təklif olunan meyarların sistemləşdirilməsinin köməyi ilə sahibkarlığın funksiyalarını müəyyənləşdirdikdən sonra bu funksional vəzifələrin yerinə yetirilmə dərəcəsini xarakterizə edən göstəriciləri müəyyənləşdirmək mümkündür.

Dövlətin biznes mühitinin yaxşılaşdırılmasında çoxsaylı dəstək formalarına baxmayaraq, bu sahədə bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdən geri qalırıq. Ümid edirik ki, yaxın gələcəkdə ölkəmiz geniş xarici təcrübəni nəzərə alaraq sahibkarlığın bugünki milli iqtisadi sistemdə rolunun artmasına və bu sektorun istehsal etdiyi və göstərdiyi xidmətlərin dəyərinin ÜDM-də xüsusi çəkisinin daha da artmasına nail olacaqdır. Bunu bizə 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş Qarabağ və ətraf bölgələrdə sahibkarlığın inkişafı üçün əlverişli təbii-iqtisadi potensialın olması deməyə əsas verir. Bu da son nəticədə həmin ərazilərdə sahibkarlığın inkişafı ilə əlverişli biznes mühitini yaxşılaşdırmaqla yanaşı, ölkənin sosial-iqtisadi inkişafının davamlılığının artırılmasına təkan verəcəkdir.

Bunlarla bərabər, ölkə Prezidentinin 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda postkonflikt ərazilərin dirçəldilməsi, əhalinin doğma yurdlarına daha intensiv şəkildə qayıdışının təmin edilməsi tədbirləri nəzərdə tutulmuşdur və artıq onların icrasına başlanılmışdır[11].

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Böyük Qayıdışa start verilmişdir. Ağalı kəndi bazasında "ağıllı kənd" pilot layihəsi uğurla icra edilmiş və sakinlər öz doğma yurdlarına qayıtmaqda davam edirlər. Suqovuşan qəsəbəsi də ilk sakinlərini qoynuna almışdır. Daha intensiv məskunlaşma Füzuli şəhərində gedir və şəhər sürətlə inkişaf etməkdədir. Ağdam və Şuşa şəhərlərində intensiv olaraq yaşayış massivləri və evləri tikilməkdədir.

Eyni zamanda, bu ərazilərdə sahibkarlığın inkişafı və əhalinin məşğulluğunun təmin edilməsi xüsusi diqqət mərkəzindədir. Ağdam

---

[11] Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı. AR Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir

Sənaye Parkında və Cəbrayılda “Araz Vadisi İqtisadi Zonası”nda rezidentlərin sayı artmaqdadır və müxtəlif istehsal və emal sahələrinin yaradılması prosesləri gedir. Laçında aqrar aqropark fəaliyyət göstərir və genişlənməkdədir. Sahibkarlığın inkişafı və biznes mühitinin yaxşılaşdırılması üçün işğaldan azad olunmuş ərazilər üçün 10 il müddətinə vergi və gömrük güzəştləri vardır. Hesab edirik ki, bütün bunlar yaxın perspektivdə postkonflikt ərazilərdə sahibkarlığın inkişafına əsaslı təkan verəcəkdir.

Dissertasiya işinin **“Azərbaycanda Strateji Yol Xəritəsində nəzərdə tutulan biznes mühitinin yaxşılaşdırılması”** adlı **üçüncü fəslində** biznes mühitinin yaxşılaşdırılması məqsədilə qanunvericilik bazasının təkmilləşdirilməsi, sahibkarlığın inkişafında biznes mühitinin yaxşılaşdırılması üçün innovativ infrastrukturun genişləndirilməsi və Azərbaycanda biznes mühitinin sağlamlaşdırılmasının başlıca istiqamətləri verilmişdir.

Qeyd edək ki, Strateji Yol Xəritəsində biznes mühitinin yaxşılaşdırılması məqsədilə tənzimləyici və qanunvericilik bazasının inkişafı və onlara dəstək tədbirlərinin həyata keçirilməsi məqsədilə aşağıdakı tədbirlərin görülməsi nəzərdə tutulmuşdur: 1) Biznes mühitinə dair qanunvericilik aktlarının təhlili və bu əsasda təkmilləşdirilməsi üçün təkliflərin hazırlanması. 2) Biznes mühitinin yaxşılaşdırılmasını dəstəkləmək üçün ictimai təşkilatların funksiyalarını müəyyənləşdirən, mikro, kiçik və orta müəssisələrə mikrokredit vermək üçün şərait yaradan, risklərin sığortası üçün qanuni şərtlər yaradan, sahibkarlığı dəstəkləyən fondların funksiyalarını təmin edən milli qanunvericilik layihələrinin yenidən hazırlanması və sahibkarlıq strukturlarının innovativ fəaliyyəti üçün güzəştli şərait yaratmaq baxımından təkmilləşdirilməsi. 3) Əmək qanunvericiliyinə, Vergi Məcəlləsinə, sahibkarlığı dəstəkləyən fərman və sərəncamlara, fərdi köməkçi təsərrüfatların inkişafına dair qanun layihələrinə əlavə və dəyişikliklər üçün təkliflərin hazırlanması və 4) Dövlət qurumları tərəfindən biznes mühitində hüquqi münasibətlərin tənzimlənməsi üzrə qanunvericilik aktlarının təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması.

Biznes mühitinin yaxşılaşdırılmasına hüquqi dəstəyin gücləndirilməsi üçün son illərdə həyata keçirilən tədbirlər, əlbəttə ki,

onun inkişafı üçün böyük əhəmiyyətə malikdir. Qeyd edək ki, ölkəmizdə aparılan iqtisadi islahatlar hər il ənənəvi olaraq dünyada biznes mühitini qiymətləndirmək üçün nəşr olunan hesabatlarda həmişə diqqət mərkəzindədir. Bu cür hesabatlardan biri Dünya Bankı tərəfindən hazırlanan və biznes mühitinin qiymətləndirilməsini özündə əks etdirən Doing Business hesabatıdır. Həmin hesabata əsasən respublikamız biznes mühitinin əlverişliliyinə görə 190 ölkə arasında 2018-ci ildə 57-ci, 2019-cu ildə 25-ci və 2020-ci ildə 28-ci yerdə qərarlaşmışdır. O cümlədən, biznesə başlama indeksinə görə 2018-ci ildə 18-ci, 2019 və 2020-ci illərdə isə 9-cu yerdə mövqe tutmuşdur. Kreditlərin alınmasına görə isə ölkəmiz 2018-ci ildə 122-ci, 2019-cu ildə 22-ci və 2020-ci ildə isə 1-ci yeri tutmuşdur[12]. Bu göstəricilər respublikamızda biznes mühitinin yaxşılaşmasının əyani sübutudur.

İnnovativ cəhətdən fəal müəssisələrin prioritet inkişafı üçün KOS-ların öz dövriyyə aktivlərinin payını artırmaq, bu məqsədlə maliyyələşdirmə mexanizmini daha da təkmilləşdirmək istiqamətində bir sıra xüsusi addımlar atılmalıdır: 1) ölkənin bölgələrinin xüsusiyyətləri nəzərə alınmaqla, güzəştli kreditləşdirmə üçün sahibkarlıq subyektləri tərəfindən həyata keçirilən iqtisadi fəaliyyət növlərinin müəyyənləşdirilməsi; 2) sahibkarlığın maliyyə mənbələrinə olan ehtiyacları üçün hədəflərin müəyyənləşdirilməsi və əvvəldə qeyd etdiyimiz kimi maliyyə əlçatanlığının, ucuz kreditlərə çıxışın təmin olunması; 3) İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin genişləndirilməsi imkanlarının nəzərdən keçirilməsi; 4) kreditlər üçün təminat bazasının genişləndirilməsi; 5) kredit təşkilatlarının resurslarından sahibkarlıq sektoruna borc verilməsi üçün istifadənin stimullaşdırılması; 6) sahibkarlıqda innovasiya yönümlü və təminatsız kreditlərin istifadəsi mexanizmlərinin inkişafı; 7) sahibkarların maliyyə savadlılığının artırılması; 8) sahibkarlıq sektoruna təsir edən risklərin idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi və s.

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması ilə əlaqədar olaraq, son illərdə görülən tədbirlərin intensivliyi və səmərəliliyi

---

[12] Kiçik və Orta Biznesin İnkişafı Agentliyi. [Elektron resurs] / URL: https://smb.gov.az/storage/KOB%C4%B0A%20%C4%B0CMAL%202020.pdf. – s.2.

xüsusilə fərqlənir. Ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş mühüm sənəddə - "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə bu sahədə strateji hədəflər müəyyənləşdirilmişdir[13].

Strateji Yol Xəritəsi çərçivəsində biznes mühitinin sağlamlaşdırılması üçün, ilkin olaraq bir qrup prioritet istiqamətlərdə vəzifələrin həllini təmin etmək lazımdır və bunlar öz əksini sxem 5-də tapmışdır:




**Sxem 5. Azərbaycanda yeni reallıqlar nəzərə alınmaqla, Starteji Yol Xəritəsi çərçivəsində biznes mühitinin sağlamlaşdırılması istiqamətlərinin blok-sxemi**
*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

[13]Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. – Bakı: 6 dekabr 2016, – 96 s.

Sxem 5-də verilmiş fəaliyyət istiqamətləri və prioritetləri ölkəmizdə bzines mühitinin sağlamlaşdırılmasına müasir yanaşmaların dərinləşdirilməsini və bununla bağlı olaraq biznes mühitinin yaxşılaşdırılması tədbirlərinin genişləndirilməsini şərtləndirir.

Strateji Yol Xəritəsində sahibkarlığın inkişafının təmin olunmasında qarşıya qoyulmuş hədəflərə uyğun şəkildə biznes mühitinin yaxşılaşdıılması istiqamətində əldə olunan bir sıra nəticələrə diqqət yetirmək istərdik. Belə ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hesabatına istinad etsək, keçən dövr ərzində Dünya Bankının "Doing Business" hesabatında ölkəmiz "Kreditlərin alınması" indikatoruna görə 2018-ci ildə 190 ölkə içərisində 122-ci siradan 2020-ci ildə 1-ci yerə qədər qalxa bilmişdir. Dövlət-biznes dialoqu təmin edilmiş, 2020-ci ildə Mediasiya Şurası yaradılmış, biznesin sürətləndirilməsi və biznes proseslərinə müdaxilələrin aradan qaldırılması tədbirləri görülmüş, elektron xidmətlərin əhatəsi genişləndirilmiş, bir sıra ölkələrdə ticarət nümayəndəlikləri yaradılmış, ixrac subsidiyaları sistemi yaradılmış, "Doing Business 2020" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdə qərarlaşmışdır. "Biznesə başlama üzrə" indikatoruna görə isə qlobal miqyasda 9-cu yerə yüksəlmişdir[14].

Hesab edirik ki, sahibkarlığın inkişafı istiqamətində mövcud dövlət mexanizmlərinin tənzimlənməsi, Strateji Yol Xəritəsi çərçivəsində biznes mühitinin yaxşılaşdırılması istiqamətlərinin hazırkı dövrün tələblərinə adekvat olaraq baxılması məsələləri postpandemiya dövrünün inkişaf meyilləri və işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi hədəfləri ilə uzlaşdırılmalı, müasir çağırışları özündə ehtiva etməlidir.

**Dissertasiyanın "Nəticə" bölməsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi əhəmiyyətə malik təklif və tövsiyələr verilmişdir:**

1. Sahibkarlığın inkişaf etdirilməsi və biznes mühitinin yaxşılaşdırılması problemlərinin, biznes fəaliyyətinin və onun əsas

[14] Azərbaycan Respublikasında milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Starteji Yol Xəritələrinin 2017-2020-ci illər üzrə Monitorinq və Qiymətləndirmə Hesabatı. https://ereforms.gov.az/files/monitoring/pdf/az/d4497f9b80af19af997ea8012568a1ca.pdf.

elementlərindən biri olan sahibkarlığın nəzəri yanaşmalarının öyrənilməsi bu fikirləri irəli sürməyə imkan verir ki, biznes fəaliyyəti kifayət qədər sosial-iqtisadi əhəmiyyət kəsb edən fəaliyyət kimi xarakterizə olunur. Biznes fəaliyyəti maddi nemətlər yaradır, məhsullar istehsal edir; risk altında kommersiya fəaliyyəti həyata keçirir; istehsal sahələrini yaradır və inkişaf etdirir və buna görə də cəlbedici fəaliyyət sahəsidir.

2. Biznes mühitinin yaxşılaşdırılması problemlərinin, biznes fəaliyyətinin və onun əsas elementlərindən biri olan sahibkarlığın nəzəri yanaşmalarının öyrənilməsi bu fikirləri irəli sürməyə imkan verir ki, biznes fəaliyyəti kifayət qədər sosial-iqtisadi əhəmiyyət kəsb edən fəaliyyət kimi xarakterizə olunur. Biznes fəaliyyəti maddi nemətlər yaradır, məhsullar istehsal edir; risk altında kommersiya fəaliyyəti həyata keçirir; istehsal sahələrini yaradır və inkişaf etdirir.

3. Sahibkarlığın inkişaf etdirilməsi çərçivəsində biznes mühitinin yaxşılaşdırılması üzrə dünya təcrübəsinin öncül nümunələrinin və modellərinin Azərbaycanda tətbiqi baxımından, bu fikirdəyik ki, ilk növbədə ABŞ və Avropa Birliyi ölkələrində qeyd olunan istiqamətlərdə fəaliyyət mexanizmlərinə və alətlərinə üstünlük verilməsi səmərəli ola bilər. Digər tərəfdən, Yaponiya və Cənubi-Şərqi Asiya ölkələrinin, o cümlədən Çin və Sinqapurun təcrübəsinə önəm verilməsini vacib hesab edirik.

4. Biznes mühitinin yaxşılaşdırılmasına dövlət dəstəyinin sistemli şəkildə göstərilməsi məsələlərinə yanaşmalar müasir tələblər səviyyəsində təmin olunmalıdır. Biznes subyektlərinin stimullaşdırılmasının səmərəliliyinin təmin edilməsi məqsədilə dövlət dəstəyi mexanizmlərinin maksimum ünvanlı olmasının vacibliyi diqqət mərkəzində saxlanılmalıdır. Müasir rəqəmsal transformasiyalar şəraitində biznes mühitinin dövrün tələblərinə və qlobal çağırışlara uyğunlaşdırılması vacib məsələdir. Bu istiqamətlərdə daha çevik və məhsuldar fəaliyyət mexanizmlərinin hazırlanması və tətbiqi tədbirlərinin sistemli və ardıcıl olması üçün ölkəmizdə "Azərbaycan Respublikası üzrə biznes subyektlərinin rəqəmsal portalı"nın yaradılmasının vacibliyini bildiririk və təklif edirik. Hazırda, biznes fəaliyyəti üzrə müxtəlif dövlət və ictimai qurumlar tədbirlər görürlər, biznes subyektlərinin inkişafı üçün

münbit şərait yaradırlar, amma bunlar bir-birilərini tamamlamaq və tənzimləmək funksiyalarına malik deyildirlər. Biznes subyektlərinin rəqəmsal portalının fəaliyyət göstərməsi daha çevik qərarların verilməsinə, biznes layihələrinin təşviqinə və təşkilinə, bisnes mühitinin investisiya cəlbediciliyinin artırılmasına imkan verərdi.

5. Strateji yol xəritəsində biznes mühitinin yaxşılaşdırılması hədəfini reallaşdırmaq üçün regionlarda mövcud təbii və iqtisadi resurslardan daha fəal şəkildə və səmərəli istifadə edilməsi tədbirləri görülməlidir. Xüsusilə, Covid-19 pandemiyasının mənfi təsirindən irəli gələn amillər nəzərə alınmaqla biznes mühitinin daha intensiv şəkildə canlandırılması, dinamikliyinin təmin edilməsi və postpandemiya dövrünün tələblərinə uyğun daha çevik və məhsuldar fəaliyyət mexanizmlərinin və strategiyalarının hazırlanaraq tətbiq edilməsi vacibdir.

6. 2030-cu ilədək olan dövr üçün sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdən yanaşmaqla, Azərbaycanda müasir dövrün çağırışları əsas götürülməklə biznes mühitinin yaxşılaşdırılması istiqamətində məqsədli dövlət proqramlarının hazırlanması və həyata keçirilməsini vacib hesab edirik. Biznes mühitinin mühüm elementlərinin işləkliyi və cəlbediciliyi daxili və xarici investorların maraqlarını özündə ehtiva etməli, biznes subyektlərinin daha məhsuldar fəaliyyət göstərmələrinə, ölkə iqtisadiyyatının şaxələndirilməsinə, rəqabət qabiliyyətinin artırılmasına, yeni iqtisadi artım və maliyyə mənbələrinin formalaşdırılmasına təkan verməlidir

7. İşğaldan azad olunmuş ərazilərdə yeni yaradılmış iqtisadi rayonlarda – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa və dirçəliş tədbirlərinin maksimum sürətləndirilməsi, Böyük Qayıdışla bağlı I Dövlət Proqramının reallaşdırılmasına ciddi töhfələrin verilməsi məqsədilə, bu ərazilərdə sahibkarlıq fəaliyyətinə yönəldilən dövlət dəstəyi mexanizmlərindən və biznes mühitinin cəlbediciliyinin yüksəldilməsi üçün müəyyənləşdirilən vergi güzəştlərindən bəhrələnməklə, dövlət-özəl sektor əməkdaşlığının yeni səviyyəyə qaldırılması, bu proseslərdə özəl sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsi istiqamətlərində daha intensiv mexanizmlərin tətbiq olunmasını və tədbirlərin görülməsini vacib sayırıq və s.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə dərc edilmişdir:**


1. Sahibkarlığın inkişafı üzrə strateji yol xəritəsi çərçivəsində biznes mühitinin yaxşılaşdırılması perspektivləri // – Bakı: AMEA İqtisadiyyat İnstitutunun "Elmi Əsərlər" jurnalı, 2019, № 06. – s. 343-349.
2. Qlobal iqtisadi çağırışlar şəraitində biznes mühitinin yaxşılaşdırılmasının aktual problemlərinin və istiqamətləri // – Bakı: "Audit" jurnalı, 2019, № 03. – s.126-138.
3. Kiçik və orta sahibkarlığın inkişafında biznes mühitinin yaxşılaşdırlmasının strateji əhəmiyyəti // – Bakı: "Geostrategiya" jurnalı, 2019, № 04. – s. 93-97.
4. Sahibkarlığın inkişafı istiqamətində biznes mühitinin yaxşılaşdırılması problemlərinə yanaşmaların strateji aspektləri // – Bakı: "Kooperasya" jurnalı, 2019, № 04. – s.128-135.
5. Sahibkarlığın inkişafında biznes mühitinin yaxşılaşdirılmasının nəzəri-metodoloji məsələləri // – Bakı: "AMEA-nın Xəbərləri" jurnalı. İqtisadiyyat seriyası, 2020, № 04 – s. 23-30.
6. Azərbaycanda sahibkarlığın inkişafında biznesin stimullaşdırılmasında dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin qiymətləndirilməsi // – Bakı: "Geostrategiya" jurnalı, 2020, № 03-04 – s.46-50.
7. Strateji yol xəritəsinə uyğun sahibkarlığın inkişafi proseslərində biznes mühitinin rəqəmsallaşdırılması istiqamətləri // – Bakı: "AMEA-nın Xəbərləri" jurnalı. İqtisadiyyat seriyası, 2021, № 03, – s. 44-53.
8. Regionlarda sahibkalığın inkişafının müasir meylləri və perspektivləri // – Sumqayıt: "Regional iqtisadiyyat: müasir aspektlər və aktual məsələlər" REK, 22–23 aprel 2021-ci il. – S. 383-387.
9. Проблемы и перспективы улучшения бизнес-среды в развитии предпринимательства в контексте стратегической дорожной карты // – Москва: Журнал «Финансовая экономика», 2022, №01. – с. 169-172.
10. Усиление инновационной структуры предпринимательства в улучшении бизнес-среды в рамках

стратегической дорожной карты // – Москва: Сборник материалов. IV международной научно-практической конференции «Современные тенденции развития науки и мирового сообщества в эпоху цифровизации», 28 января 2022 года. – с.171-178.

11. Усиление развития бизнес-среды в контексте повышения эффективности предпринимательства в современных условиях // – Москва: Сборник материалов VII Международной Научно-Практической Конференции «Современные проблемы цивилизации и устойчивого развития в информационном обществе. 15 февраля 2022 года - с.118-124.



Dissertasiyanın müdafiəsi 25 dekabr 2024-cü il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 23 noyabr 2024-cü ildə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.11.2024

Kağızın formatı: 60x84

Həcm: 44409 işarə

Tiraj: 100 ədəd